


***Məclis Avrasiya Akademiyasına yeni üzv seçilmiş məşhur sənətçilər Robert Hosseinə (Fransa) və Türkan Şoraya (Türkiyə) akademiyanın diplomu və kubokunun təqdim olunmasına həsr edilmişdi.***

# AVRASİYA AKADEMİYASININ İKİNCİ RƏSMİ MƏCLİSİ

Noyabrın 17-də Xəzər Universitetinin Mərmər salonunda Avrasiya Akademiyasının ikinci rəsmi məclisi keçirildi. Tədbirdə Avrasiya Akademiyasının iki təsisçi üzvü, universitetin rəhbərliyi və əməkdaşları, hökumət və Milli Məclis üzvləri, xarici ölkələrin Azərbaycandakı səfirləri, elm və sənət xadimləri, şirkət rəhbərləri, xarici qonaqlar və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

EURASIAN ACADEMY







Akademiyanın yeni seçilmiş üzvləri Robert Hossein və Türkan Şoray salona daxil olanda iştirakçılar onları ayaq üstə gurultulu alqışlarla qarşıladılar. Bildirildi ki, akademiyaya üzv seçilmiş professor Roald Sagdeev üzürlü səbəbdən məclisdə iştirak edə bilmir.

EURASIAN ACADEMY







İştirakçılara Avrasiya Akademiyasının iki üzvünün – professor Halil İnalcık və professor Ali Cavanın bu yaxınlarda vəfat etdikləri bildirildi və onların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Aparıcılar Günay Səmədova və Eynur Mehdiyev universitet rəhbərliyi adından iştirakçıları salamladılar. Sonra Avrasiya Akademiyasının qurulma ideyası, yaranması və birinci toplantısı, Robert Hossein və Türkan Şoray haqqında filmlər nümayiş etdirildi.







Daha sonra Avrasiya Akademiyasl diplomunun və "Avrasiya Əfsanəsi" kubokunun təqdim olunması mərasimi başlandı. Robert Hosseinə diplom və kuboku Avrasiya Akademiyasının qurucu üzvləri Arif Məlikov və Hamlet İsaxanlı, həmçinin Fransanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Aurelia Bouchez, Türkan Şoraya Arif Məlikov, Hamlet İsaxanlı və Türkiyənin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral təqdim etdilər. Qeyd olundu ki, Türkan Şoray Avrasiya Akademiyasına üzv seçilən və "Avrasiya Əfsanəsi"ni alan ilk qadındır.



EURASIAN ACADEMY






Aparıcılar bildirdilər ki, Avrasiya Akademiyasının qurucu üzvlərindən professor Lüfti Zadə və professor Məhmut Gazi Yaşargil ikinci rəsmi məclisdə iştirak etmək üçün Bakıya gələ bilmədiklərinə görə, yeni seçdikləri üzvlərə öz təbriklərini göndərmişlər.

Tədbirin fasiləsində Xəzər Universitetinin kamera orkestri qısa konsert proqrqmı ilə çıxış etdi.

Mərasim Xəzər Universiteti internet televiziyası ilə canlı yayımlanmış, Azərbaycan və Türkiyə mediasında geniş işıqlandırılmışdır



# SECOND OFFICIAL ASSEMBLY OF EURASIAN ACADEMY

*This assembly was dedicated to presenting membership certificates and Eurasian Legend awards to two newly elected members of Eurasian Academy, famous cinema figures Robert Hossein (France) and Türkan Şoray (Turkey).*

On November 17, 2016, the second official assembly of Eurasian Academy was held in the Marble Hall of Khazar University. Participants in the event included two founding members of Eurasian Academy, administrators and faculty members of the university, Members of Parliament and other government bodies, ambassadors of other countries to Azerbaijan, people of science and arts, corporate executives, foreign guests, and members of the public.







When newly elected members Robert Hossein and Türkan Şoray entered the auditorium, the audience gave them a thunderous standing ovation. It was noted that Professor Roald Sagdeev, also elected for membership in Eurasian Academy, was unable to participate due to unforeseen circumstances.

An announcement was made that two members of Eurasian Academy, Professor Halil Inalcik and Professor Ali Javan, recently passed away. The audience remembered them with a moment of silence.

Hosts of the event Gunay Samadova and Eynur Mehdiyev greeted the participants on behalf of the university administration. Then films were shown reflecting the establishment and development of Eurasian Academy as well as the lives and works of new members Robert Hossein and Türkan Şoray.





Later the presentation ceremony of the Eurasian Academy certificate and Eurasian Legend award began. Eurasian Academy founding members Arif Melikov and Hamlet Isaxanli as well as the Extraordinary and Plenipotentiary Ambassador of France to the Azerbaijan Republic, Aurelia Bouchez, presented Robert Hossein's certificate and award. Then Arif Melikov, Hamlet Isaxanli, and the Extraordinary and Plenipotentiary Ambassador of Turkey to the Azerbaijan Republic, Erkan Özoral, presented Türkan Şoray's certificate and award. It was mentioned that Türkan Şoray is the first woman to be elected as a member of Eurasian Academy and receive the Eurasian Legend Award.







The hosts announced that Professor Lotfi Zade and Prof. Mahmut Gazi Yaşargil, founding members of Eurasian Academy, were unable to travel to Baku to participate in the Second Official Assembly but that they had sent their congratulations to the newly elected members.

During the event's intermission, the Khazar University Chamber Orchestra performed a brief concert program.

The ceremony was br oadcast live on Khazar University's internet television and was reported broadly by Azerbaijani and Turkish media.

